**Vətəndaş Hərəyliyi Partiyası**

**31dekabr 2023-cü il tarixə Əhəmiyyətli Uçot Siyasəti və izahlı qeydlər**

**Əhəmiyyətli Uçot Siyasəti İzahlı Qeydləri**

## 1. Giriş

Hazır ki maliyyə hesabatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 avqust 2023-cü il tarixli 262 saylı ilə təsdiq edilmiş qərarına Siyasi Partiya maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında" qanuna əsasən mühasibat uçotunu Azərbaycan Respublikası qanuna və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 avqust 2013-cü il tarixli 238 saylı qərarı ilə təsdiq edilmiş ''Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydalarına" uyğun tərtib edlmidir.

Maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq **Vətəndaş Həmrəyliyi Partiyası** üçün tərtib edilmişdir. Siyasi partiya Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. Siyasi partiya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmışdır.

### 1.1. Siyasi partiya haqqında ümumi məlumat

Azərbaycan Respublikasının Konstitusiyası " Siyasi partiyalar haqqında" qanuna əsasən **Vətəndaş Həmrəyliyi Partiyası** hüquqi şəxs olan, (bundan sonra mətndə "Siyasi Partiya" adlandırılacaq) 1992-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınaraq partiyaya 1992-c il 03 noyabr tarixli 7 saylı Dövlət qeydiyyat şəhadətnaməsi verilmişdir,

Siyasi Partiya Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı Şəhəri Vergilər Departamentinin 1 saylı filialı tərəfindən 27.09.2004 tarixdə vergi ödəyicisi kimi qeydiyyata alınmış və ona 1700155631 saylı VÖEN verilmişdir,

Siyasi Partiya Nizamnaməsinə müvafiq olaraq Azərbaycan Respublikasında müstəqil, demokratik, dünyəvi, hüquqi dövlətin qorunması, azad vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi məqsədi ilə ətrafında milli, irqi, dini mənsubiyyətindən sosial mənşəyindən asılı olmayaraq bütün təbəqələrdən olan Azərbaycan Respublikasının vətəndaşlarını birləşdirməkdən ibarətdir,

**Vətəndaş Həmrəylyi Partiyasının maliyyə-təsəsrrüfat fəaliyyətinə aşağdakı şəxslər cavabdeh olmuşlar:**

- Partiyanın sədri-Rüstəmxanlı Sabir Xudu oğlu bütün auditlə əhatə olunan dövrdə.
- Baş mühasib -Yusubov Tağı Kamil oğlu bütün auditlə əhatə olunan dövrdə.

Siyasi partiyanın 2023-cü ildə işçilərinin orta siyahı sayı 28 nəfər olmuşdur.

**1.2. Siyasi Partiyamın hüquqi ünvanı**

Siyasi Partiyamın hüquqi ünvanı aşağdakı kimidir.:

Faktiki ünvanı: Bakı Şəhəri,Nəsimi rayonu,Tbilisi prospekti 76,

Hüquqi ünvanı: Bakı Şəhəri,Nəsimi rayonu,Tbilisi prospekti 76,

**1.3. Əməliyyat valyutası**

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

**Əhəmiyyətli uçot Siyasəti**

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəları aşağdakı bəndlərdə göstərilmişdir.

**2.1.3. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları**

Partiyanın maliyyə hesabatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 avqust 2023-cü il tarixli 262 saylı ilə təsdiq edilmiş qərarına Siyasi Partiya maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında" qanuna əsasən mühasibat uçotunu Azərbaycan Respublikası qanuna və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 avqust 2013-cü il tarixli 238 saylı qərarı ilə təsdiq edilmiş ''Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydalarına" uyğun tərtib edlmişdir.

Siyasi Partiya maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında"qanuna əsasən mühasibat uçotunu Azərbaycan Respublikası qanuna və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 avqust 2013-cü il tarixli 238 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda mühasibat uçotunun aparılması Qaydalarına" uyğun tərtib edilmişdir.

"Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və MHBS-na uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, . Siyasi partiya uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın

**2.1.4. Valyutaların yenidən hesablanması**

*(a) Funksional valyuta və hesabat valyutası*

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

*(b) Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Xarici valyutada olan pul vəsaitləri və borcların qalıqları hesabat tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq funksional valyutalarda əks etdirilir.

**3.1.1. Qeyri-maddi aktivlər.**

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilinməlidir;
- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxilolacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

**3.1.2. Torpaq, tikili, avadanlıqlar**

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır, "ilkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Tikililər | 7% |
| Maşın və avadanlıqlar | 20% |
| Nəqliyyat vasitələri | 25% |
| Digər aktivlər | 20% |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

**3.1.3. Daşınmaz əmlka investisiyalar**

Daşınmaz əmlaka investisiyalar icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması məqsədi ilə və ya hər iki məqsəd üçün saxlanılan əmlaklardır.

**3.1.4. Uzunmüddətli debitor borcları**

Uzunmüddətli debitor borcları növbəti hesabat tarixindən sonra mövcud oması göznəliən debitor borclarıdır.

**3.1.5. Sair uzunmüddətli aktivlər**

Sair uzunmüddətli aktivlərə aşağdakılar daxildir:
- verilmiş uzunmüddətli avanslar;
- sair uzunmüddətli qeyri-maliyyə aktivləri;

**3.1.6. Ehtiyatlar**

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

**3.1.7. Qısamüddətli debitor borcları**

Hesabat dövründən sonra 12 ay müddətinə ödənilməsi gözlənilən debitor borclarıdır.

**3.1.8. Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

**3.1.9. Sair qısamüddətli aktivlər**

Sair qısamüddəli aktivlərə "Təhtəlhesab məbləğlər" Digər qısamüddətli aktivlər" daxildir.

**3.1.10. Ehtiyat fondu**

"Ehtiyat fondu" maddəsinin "Yenidən qiymətləndirmə üzrə ehtiyat fondu", "Məzənnə fərqləri üzrə ehtiyat fondu" və "Digər ehtiyat fondları" hesablarında hesabat dövrünün əvvəlinə və sonuna uçota alınan ümumiləşdirilmiş məlumatlar üzrə qalıq məbləğlərinin cəmi göstərilir.

**3.1.11. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) xalis aktivlər (kapital)**

Xalis aktivlər(kapital)-a "Ehtiuat fondu'V'Bölüşdürülməmiş mənfəət (ödənilməamiş zərər) aiddir. "Ehtiuat fondu"-na " Yenidən qiymətləndirmə üzrə ehtiyat fondu", "Məzənnə

fərqləri üzrə ehtiyat fondu" daxildir. Partiyanın fəaliyyəti dövründə hesablanmış xalis mənfəəti "Maliyyə vəziyyəti haqqında hesabafın "Bölüşdürülməmiş mənfəət(ödənilməmişzərər)" maddəsində əks etdirilir.

**3.1.12. Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər**

Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklərə "Uzunmüddətli bank kreditləri",''İşçilər üçün uzunmüddəli bank kreditləri",''Uzunmüddətli borclar",''Digər uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər" daxildir.

**3.1.13. Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər**

Uzunmüddətli qiymətləndirilmiş öhdəliklərə "Uzunmüddətli zəmanət öhdəliklər",''Digər uzunmüddətli qiymətləndirilmiş öhdəliklər" daxildir.

**3.1.14. Uzunmüddətli kreditor borcları**

Uzunmüddətli kreditor borcları "Malsatan və podratçılara uzunmüddətli kreditor borcları" və "Digər Uzunmüddətli kreditor borcları" daxildir.

**3.1.15 Sair uzunmüddətli öhdəliklər**

Sair uzunmüddətli öhdəliklərə "Alınmış uzunmüddətli avanslar" və "Digər qısamüddətli öhdəliklər" daxildir.

**13.1.16 Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər**

Qısamüddətli faiz xərcləri yaradan öhdəliklərə "Qısamüddətli bank kreditləri", "İşçilər üçün qısamüddətli bank kreditləri", "Qısamüddətli borclar", "Digər qısamüddətli faiz xərcləri yaradan öhdəliklərə" daxildir.

**3.1.17. Qısamüddətli qiymətləndirilmiş öhdəliklər**

Qısamüddətli qiymətləndirilmiş öhdəliklərə "Qısamüddətli zəmanət öhdəlikləri",''Digər qısamüddətli qiymətləndirilmiş öhdəliklər" daxildir.

**3.1.18 Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər**

Partiya qeyri-kommersiya təşkilatıdır və yalnız qanunla qadağan olunmayan kommersiya fəaliyyəti göstərdiyi halda əldə edilən gəlirdən Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq əlavə dəyər və mənfəət vergisi ödəyicisi olur.
Siyasi partiya əmək, sosial sığorta,işsizlikdən sığorta, Tibbi sığorta, sosial sığorta haqqında qanunlara müvafiq olaraq qanunvericilik ilə nəzərdə tutulan qaydalar tətbiq edilir.

**3.1.19.Qısamüddətli kreditor borcları**

Qısamüddətli kreditor borclara "Malsatan və podratçılara qısamüddətli kreditor borcları",''İşçi heyətinə qısamüddətli kreditor borcları"," İcarə ilə bağlı qısamüddətli kreditor borcları",''Faizlər üzrə qısamüddəli kreditor borcları" və "Digər qısamüddətli kreditor borcları" daxildir.

**3.1.20 Sair qısamüddətli öhdəliklər**

Sair qısamüddətli öhdəliklərə "Alınmış qısamüddətli avanslar" və " Digər qısamüddətli öhdəliklər" daxildir.

**3.2. Gəlirlər**

Gəlirlər əməliyyatların baş verdiyi anda müvafiq hesabat dövründə tanınaraq maliyyə hesabatlarında əks etdirilir. Partiyanın gəlirlərinə aşağdakılar daxildir.

1. üzvlük haqları;
2. ianə;
3. Dövlət maliyyə yardımları;
4. Çap mediasının təsisi edilməsindən o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir;
5. İctimai-siyasi nəşrlərin,digər təbliğat və təşviqat Materiallarının hazırlanması və satışından gəlir;
6. Mülki hüquq müqavilələri üzrə,o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir;
7. Hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) Yolu ilə əldə edilmiş əmlak;
8. Qanunla qadağan olunmayan digər gəlirlər

**3.2.2.Xərclər**

Xərclər təsərrüft əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı vəsaitlərin və onların ekvivalentlərinin xaric olması zamanı deyil,bu əməliyyatların başverdiyi anda müvafiq hesabat dövründə tanınaraq,maliyyə hesabatlarında əks etdirilir.

"maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatın''da xərclər aşağdakı maddələr üzrə ümumiləşdirilir;

1. cari işlərə sərf olunan vəsait;\
2. siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər;
3. ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər;
4. Yerli aşağı təşkilatlara ödənişlər;
5. kreditlər üzrə faizlər;
6. fərdi xərclər;

**İzahlı qeydlər**

**1. Qeyri-maddi aktivlər 2023 2022**

Partiyanın cari hesabat ilində qeyri-maddi aktiv üzrə əməliyyatları olmamışdır.

| **2. Əsas vəsaitlər** | | | **Yüksək texnoloji avadanlıqlar** | | | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| 01 yanvar 2023-cü il tarixinə ilkin dəyəri | - | - | 9550.00 | - | - | 9550.00 |
| Yığılmış amortizasiya | - | - | (4376.87) | - | - | (4376.87) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 01 yanvar 2023-cü un tarixinə balans dəyəri | - | - | 5173.13 | - | - | 5173.13 |
| Daxilolmalar | - | - | - | - | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Amortizasiya ayırmaları | - | - | (1293.28) | - | - | (1293.28) |
| 01 yanvar 2024-cü il tarixinə ilkin dəyər | - | - | 9550.00 | - | - | 9550.00 |
| Yığılmış amortizasiya | - | - | (5670.15) | - | - | (5670.15) |
| 01 yanvar 2024-cü il tarixinə balans dəyər | - | - | 3879.85 | - | - | 3879.85 |

**3. Dasınmaz əmlaka investisiyalar**

Partiyanın cari hesabat ilində daşınmaz əmlaka investisiyalar üzrə əməliyyatı olmamışdır.

**4. Uzunmüddətli debitor borcları**

Partiyanın cari hesabat ilində uzunmüddətli debitor borcları olmamışdır.

**5. Sair uzunmüddətli aktivlər**

Partiyanın cari hesabat ilində Sair üzunmüddətli aktivləri olmamışdır.

**6. Ehtiyatlar**

Partiyanın cari hesabat ilində ehtiyatları olmamışdır.

**7. Qısamüddətli debitor borcları**

| | 2023 | 2022 |
|---|---|---|
| DSMF 22% debitor borcları | - | 179.05 |
| DSMF 10% DT borcları | - | 270.12 |
| İşsizlikdən sığorta üzrə debitor borcları | - | 30.58 |
| İşçi heyyəti üzrə debitor borcları | - | 1.13 |
| Tibbi sığorta üzrə debitor borcları | - | 52.22 |
| **Cəmi:** | **-** | **533.10** |

**8. Pul vəsaitləri onların ekvivalenti**

| | 2023 | 2022 |
|---|---|---|
| Kassada olan nəğd pul vəsaitləri | - | - |
| Bank hesablarında olan pul vəsaitləri | 37539.36 | 46672.45 |
| **Cəmi:** | **37539.36** | **46672.45** |

Bank hesablarında olan pul vəsaitlərindən;

| | 2023 | 2022 |
|---|---|---|
| Milli valyutada pul vəsaitləri | 37539.36 | 46672.45 |
| Xarici valyutada pul vəsaitləri | - | - |
| **Cəmi:** | **37539.36** | **46672.45** |

**9. Sair qısamüddətli aktivlər**

| | 2023 | 2022 |
|---|---|---|
| İşçi heyyəti üzrə qısamüddətli kreditor borcları | 12.54 | 12.54 |
| İşçi heyyəti üzrə qısamüddətli kreditor borcları (əmək haqqı) | - | - |
| Digər qısamüddətli kreditor borcları | - | - |
| **Cəmi:** | **12.54** | **12.54** |

**10. Ehtiyat fondu**

Partiyanın cari hesabat ilində ehtiyyat fondu üzrə əməliyyatı olmamışdır.

| **11. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **2023** | **2022** |
|---|---|---|
| Bölüşdürülməmiş mənfət (ödənilməmiş zərər) | (10861.43) | 49472.04 |
| **İl üzrə xalis mənfəət (zərər)** | **2023** | **2022** |
| | - | - |
| **Cəmi:** | **(10861.43)** | **49472.04** |

2023-cü ilin yekununa patiyanın 40986.89 manat mənfəəti qalmışdır.

**12. Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər**
Partiyanın cari hesabat ilində uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər üzrə əməliyyatı olmamışdır.

**13. Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər**
Partiyanın cari hesabat ilində uzunmüddətli qiymətləndirilmiş öhdəliklər üzrə əməliyyatı olmamışdır.

**14. Uzunmüddətli kreditor borcları**
Partiyanın cari hesabat ilində sair uzunmüddətli kreditor borcları üzrə əməliyyat olmamışdır.

**15 Sair uzunmüddətli öhdəliklər**
Partiyanın cari hesabat ilində sair uzunmüddətli öhdəlikləri olmamışdır.

**16.Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər**
Partiyanın cari hesabat ilində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər üzrə əməliyyatlar olmamışdır.

**17. Qısamüddətl qiymətləndirilmiş öhdəlikləri**

Partiyanın cari hesabat ilində qısamüddətli qiymətləndirilmiş öhdəliklər üzrə əməliyyatları olmamışdır.

**18. Vergi və sair məcburi ödənişlər üzrə öhdəlikləri**

| | 2023 | 2022 |
|---|---|---|
| Vergilər üzrə | - | - |
| Sosial sığorta üzrə | 419.78 | 517.82 |
| İşsizlikdən sığorta fondu | - | - |
| İcbari tibbi sığorta | - | - |
| **Cəmi:** | **419.78** | **517.82** |

**19. Qısamüddətli kreditor borcları**

Partiyanın cari hesabat ilində qısamüddətli kreditor borcları üzrə əməliyyatları olmamışdır.

**20. Sair qısamüddətli öhdəliklər**

Partiyanın cari hesabat ilində sair qısamüddətli öhdəliklər üzrə əməliyyatları olmamışdır.

**21. Üzvülük haqqları**

Partiyanın cari hesabat ilində üzvülük haqlarından gəliri olmamışdır.

**22. İanə**

Partiyanın cari hesabat ilində ianədən gəliri olmamışdı

**23. Dövlət maliyyə yardımı**

| | 2023 | 2022 |
|---|---|---|
| Dövlət maliyyə yardımı | 345197.65 | 366305.50 |
| **Cəmi:** | **345197.65** | **366305.50** |

**24. Çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəlir.**

Partiyanın cari hesabat ilində çap mediasının təsis edilməsindən, o cümlədən çap mediasının iştirakçısı olmaqdan əldə edilən gəliri olmamışdır.

**25. İctimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat mate riallarının hazırlanması və satışından gəlir;**

Partiyanın cari hesabat ilində ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat mate riallarının hazırlanması və satışından gəliri olmamışdır.

**26. Mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəlir;**

Partiyanın cari hesabat ilində mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından əldə edilən gəliri olmamışdır.

**27. Hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlak;**

Partiyanın cari hesabat ilində hüquq varisliyi və ya vərəsəlik (miras aktivi) yolu ilə əldə edilmiş əmlakı olmamışdır.

**28. Qanunla qadağan olmayan digər gəlirlər;**

Partiyanın cari hesabat ilində qanunla qadağan olmayan digər gəlirləri olmamışdır.

**Xərclər, o cümlədən**

| **1. Cari islərə sərf olunan xərclər** | **2023** | **2022** |
|---|---|---|
| Ezamiyyə xərcləri: (Yeni "Siyasi partiyalar haqqında" qanuna uyğun olaraq üzvlərin qeydiyyatı və təşkilatların yeni Nizamnaməyə uyğun yığıncaqlarının keçirilməsi) | 7440.00 | - |
| **2.Siyasi partiyanın saxlanmasına və informasiva təminatına çəkilən xərclər** | **2023** | **2022** |
| Əmək haqqı xərcləri | 265259.89 | 225089.30 |
| Sosial sığorta DSMF-22-15% xərcləri | 44871.00 | 39227.98 |
| Cərimə DSMF | 56.62 | - |
| İcbari tibbi sıqorta xərcləri | 5304.60 | 4197.48 |
| Bank xidməti xərcləri | 2178.40 | 1929.66 |
| Ofis, dəftərxana və təsərrüfat,yanacaq xərcləri | 210.96 | 11140.00 |
| İşsizlikdən sığorta fondu 0.5% | 1326.30 | 1126.69 |
| Yanacaq xərcləri | 10350.00 | - |
| Kommunal xərclər | - | 2476.90 |
| Enerji xərcləri | 1035.00 | - |
| Su istifadə xərcləri | 528.00 | - |
| Audit xidməti xərcləri | 1400.00 | 1000.00 |
| Rabitə və internet xərcləri | 1712.84 | 1778.48 |
| Atəşgah sığorta | 632.88 | 635.13 |
| Dövrü mətbuat abunə ("Qaya" MY) | 484.60 | 519.40 |
| Notaris və hüquq xidmət xərci | 130.00 | 126.00 |
| Uzunmüddətli aktivlərin amortuzasiya xərcləri | 1293.28 | 1724.37 |
| Çap xərcləri | 6000.00 | - |
| Təhsil haqqı | 1200.00 | - |
| Sair xərclər | 1864.31 | 248.77 |
| Kompyuterlərə texniki baxış və katriclərin doldurulması | 340.40 | 140.00 |
| VHP-nin təsis edilməsinin 30-cu ildönümü ilə bağlı yubley tədbirinin keçirilməsi xərci | - | 7830.20 |
| VHP.az saytına texniki xidmət, saytın yenilənməsi, domen və hosting xidmət xərciləri | 510.00 | 831.10 |

| | | |
|---|---|---|
| VHP-nin təsis edilməsinin 30-cu illik yubileyi ilə bağlı "Vətəndaş Həmrəyliyi və bu onun və gələcəyin iddeologiyasıdır" kitabının nəşri ilə bağlı xərclər | - | 6385.00 |
| Qaz istifadə xərcləri | - | - |
| VHP-nin bölgə təşkilatlarının yığıncaqlarının keçirilməsi və ezamiyyə xərcləri | - | 8688.00 |
| Əmək haqqı kartlarının alınmasına | 280.00 | 340.00 |
| **CƏMİ:** | **346969.08** | **315434.46** |

**3. İctimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər**

Partiyanın cari hesabat ilində ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər üzrə əməliyyatı olmamışdır

**4. Yerli (aşağı) təşkilatlara ödənişlər**

| | 2023 | 2022 |
|---|---|---|
| Qəbələ rayon təşkilatı | 1650.00 | 1400.00 |

**5. Kreditlər üzrə faizlər**

Partiyanın cari hesabat ilində kreditlər üzrə faizlərə dair əməliyyatları olmamışdır.

**6. Fərdi xərclər**

Partiyanın cari hesabat ilində fərdi xərclər üzrə əməliyyatları olmamışdır.

**7. Sair xərclər**

Partiyanın cari hesabat ilində sair xərclər üzrə əməliyyatları olmamışdır.

**Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.

**Vətəndaş Həmrəyliyi Partiyası**

**VHP sədri:** [signature] **Rüstəmxanlı Sabir Xudu oğlu**

**Baş mühasib:** [signature] **Yusubov Tağı Kamil oğlu**

**M.Y** [stamp: AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞ HƏMRƏYLİYİ PARTİYASI • THE REPUBLIC OF AZERBAIJAN CIVIC SOLIDARITY PARTY]

**30 yanvar 2024-cü il**